**AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT NEFT ŞİRKƏTİ**

# ƏMR

№ 172

**Bakı şəhəri** "30" dekabr 2010-cu il

ARDNŞ-nin şirkətdaxili standartlarının təsdiq edilməsi barədə

"Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin strukturunun təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 24 yanvar tarixli 844 nömrəli Fərmanına əlavələr və dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 22 aprel tarixli 258 nömrəli Fərmanı ilə Nizamnaməsinə əlavə və dəyişikliklər edilməklə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinə bir sıra müstəsna səlahiyyətlər verilmişdir ki, bunun da nəticəsində Şirkət neft-qaz və neft-kimya əməliyyatları sahəsində ümümqəbul olunmuş beynəlxalq standartların tətbiq edilməsi imkanını əldə etmişdir. Standartlaşma sahəsində böyük təcrübəsi olan məsləhətçi şirkətlər cəlb edilməklə hal hazırda ARDNŞ-nin fəaliyyət sahəsinin prioritet istiqamətləri üzrə bir sıra standartların layihələri hazırlanmışdır. Bunlara standart sənədin istifadə və tətbiqinə, ARDNŞ-nin Baş ofisinin struktur bölmələrinin əsasnamələrinin tərtib edilməsinə, ARDNŞ üzrə komissiyaların təşkili və fəaliyyətinə, vəzifə təlimatlarının tərtib edilməsinə və tətbiqinə, Şirkət üzrə mənzil növbəsi uçotuna götürülmüş şəxslərin mənzil şəraitinin yaxşılaşdırılmasına yönələn, ARDNŞ-nin balansında olan qeyri yaşayış sahələrinin yaşayış sahələrinə keçirilməsinə və əmlakın icarəyə verilməsinə dair tələbləri özündə əks etdirən layihələri aid etmək olar.

Yuxarıda qeyd olanları nəzərə alaraq, tənzim etdiyi münasibətlərə dair ümumi norma, tələb və qaydaları müəyyən edən standartlar layihələrinin təsdiq və tətbiq edilməsi məqsədilə

əmr edirəm:

1. "Standartların istifadəsinə və tətbiqinə dair standart (SOCARSS – 001.2010)" təsdiq edilsin (əlavə olunur – Əlavə I).
2. "ARDNŞ üzrə Komissiyaların təşkili və fəaliyyətinə dair standart. (SOCARSS – 002.2010)" təsdiq edilsin (əlavə olunur – Əlavə II).
3. "ARDNŞ-nin Baş ofisinin struktur bölmələrinin əsasnamələrinin tərtib və təsdiq edilməsinə dair standart. (SOCARSS – 003.2010)" təsdiq edilsin (əlavə olunur – Əlavə III)
4. "Vəzifə təlimatlarının tərtib edilməsinə və tətbiqinə dair standart. (SOCARSS – 004.2010)" təsdiq edilsin (əlavə olunur – Əlavə IV)
5. "Əmlakın icarəyə verilməsinə dair standart. (SOCARSS – 005.2010)" təsdiq edilsin (əlavə olunur – Əlavə V).
6. "Əmlakın təyinatının dəyişdirilməsinə dair standart. (SOCARSS – 006.2010)" təsdiq edilsin (əlavə olunur – Əlavə VI)
7. SOCARSS – 005.2010 və SOCARSS – 006.2010 standartlarda nəzərdə tutulmuş Komissiyaların səlahiyyətləri ARDNŞ-nin 10 mart 2006-cı il tarixli 41 № li əmri ilə müəyyən edilmiş Komissiyaya həvalə edilsin.
8. Komissiyaya tapşırılsın ki, öz fəaliyyətini bu əmrin 5-ci və 6-cı bəndi ilə müəyyən edilmiş standartlara və ARDNŞ-nin digər şirkətdaxili normativ sənədlərinə uyğun olaraq təşkil etsin.
9. ARDNŞ-nin Hüquq idarəsinə tapşırılsın ki, standartların elektron və kağız variantlarda qeydiyyatının aparılmasını, saxlanılmasını və aidiyyəti struktur bölmələri tərəfindən eyni qaydada tətbiq edilməsinə nəzarəti təmin etsin.
10. ARDNŞ-nin İnformasiya texnologiyaları departamentinə tapşırılsın ki, standartlar sisteminin proqramlaşdırılmasını, vahid bazasının yaradılmasını və ARDNŞ-nin veb səhifəsində müvafiq rubrika açmaqla Şirkətin standartlarının orada yerləşdirilməsini təmin etsin.

Prezident

Rövnəq Abdullayev

ƏSLİ İLƏ DÜZDÜR
İcraya nəzarət, kargüzarlıq və təsərrüfat şöbəsinin rəisi
N.Səmədova
"30" 12 2010 il

*Əlavə VI*
*Azərbaycan Respublikası Dövlət Neft*
*Şirkətinin 30 12 2010 tarixli,*
*172 nömrəli əmri ilə*
*təsdiq edilmişdir*

SOCAR

**Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin standartlaşma sistemi**
**Əmlakın təyinatının dəyişdirilməsinə dair standart**
(SOCARSS – 006.2010)

---

**01.1.** **Standartlaşmanın məqsədi** - "Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin strukturunun təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 24 yanvar tarixli, 844 nömrəli Fərman ilə təsdiq edilmiş ARDNŞ-nin Nizamnaməsinin 2.3-cü bəndinə uyğun olaraq ARDNŞ üzrə mənzil növbəsində və mənzil şəraitinin yaxşılaşdırmasına ehtiyacı olan şəxslərin mənzil şəraitinin yaxşılaşdırılması məqsədilə, ARDNŞ-nin strukturuna daxil olan qurumların balansında olan qeyri-yaşayış sahəsinin (bundan sonra sahə adlanacaq) qanunvericiliyə zidd olmadan yaşayış sahəsinə (daimi yaşayış üçün qanunvericiliklə müəyyən olunmuş tələblərə cavab verməklə inşa edilmiş mənzil və ya fərdi yaşayış ev) keçirilməsi ilə əlaqədar standart qaydaları müəyyən etmək.

**01.2.** **Standartın tətbiqi sahəsi** – bu standart ARDNŞ-nin və onun strukturuna daxil olan qurumların balansında olan qeyri-yaşayış sahələrinin (istehsalat, ticarət, mədəni-maarif, müalicə-sanitar, kommunal-məişət, inzibati və sair (daimi yaşayışdan başqa) məqsədlərlə istifadə edilən obyektlər, tikililər) yaşayış sahələrinə keçirilməsi ilə əlaqədar yaranan münasibətlərə şamil edilir və onun tələblər məcburi xarakter daşıyır.

**01.3.** **Sahənin keçirilməsini şərtləndirən amillər** – neft-qaz və neft-kimya əməliyyatlarının aparılması üçün tələb olunmadığı, keçiriləcək sahənin məxsus olduğu müəssisənin spesifik fəaliyyət profilinə uyğun istifadə edilmədiyi, sahənin istifadəsiz qaldığı və ya səmərəsiz istifadə olunduğu, yaşayış zonasında yerləşdiyi, qəzalı binada, tarixi, memarlıq və mədəni abidə sayılan binada yerləşmədiyi, keçirilməsi nəticəsində binada yaşayan digər sakinlərin öz mənzillərindən rahat istifadə imkanlarını məhdudlaşdırmadığı hallarında sahənin keçirilməsinə məsələsinə baxıla bilər.

**01.4.** **Şirkət üzrə münasibətləri tənzimləyən qurum** - ARDNŞ-nin prezidentinin əmri ilə müəyyən edilən müvafiq Komissiya.

**01.5.** **Sahənin keçirilməsinə əsas** – ARDNŞ-nin müvafiq Komissiyanın rəyinə, Komissiyanın sədri və sahə üzrə vitse-prezidentin vəsatətinə əsasən ARDNŞ-nin prezidentinin sərəncamıdır. Sahənin keçirilməsi ilə əlaqədar yenidənqurma və/və ya yenidən planlaşdırılmaya dair işlərin aparılmasına ehtiyac olduqda, bu haqda, habelə keçirilmə nəticəsində yaşayış sahələrinin bölüşdürülməsi barədə müvafiq göstərişlər sərəncamda əks olunur.

**01.6. Sahənin keçirilməsi ilə əlaqədar təqdim ediləcək sənədlərin siyahısı** – aşağıda göstərilən siyahı ilə məhdudlaşmayaraq maraqlı tərəfin (ARDNŞ üzrə mənzil növbəsi uçotunda dayanan şəxsin) müraciəti (ərizəsi), şəxsiyyət vəsiqəsinin surəti və keçiriləcək sahə ilə təmin olunması barədə imzalanmış razılaşma; keçirilən sahənin texniki təsviri ilə planı (yaşayış bina olduqda texniki pasportu) və ya eskizi; tələb olunduğu təqdirdə keçirilən sahənin müvafiq qaydada hazırlanmış yenidənqurma və yenidən planlaşdırma işlərinin layihəsi.

**01.7. Sahənin keçirilməsindən imtina edilməsi əsasları** – 01.5-ci və 01.6-cı bəndlərin tələblərinin pozulması; keçirilməsi nəzərdə tutulan sahənin müvafiq tələblərə cavab verməməsi və ya bu tələblərə uyğunlaşdırılması üçün texniki imkanın olmaması; yenidənqurma, yenidən planlaşdırma və digər zəruri işlərin qanunvericiliyin tələblərinə uyğun olmadan aparılması.

**01.8. Komissiyada müraciətlərə baxılması müddəti** – 01.6-cı bənddə göstərilmiş sənədlər Komissiyaya təqdim olunduğu gündən 30 gün ərzində müraciətlərə baxılır. Müraciətin nəticəsindən asılı olaraq 01.5-ci bənddə göstərilmiş qaydada sahənin keçirilməsi ilə əlaqədar qərar qəbul edilməsi üçün ARDNŞ-nin prezidentinə müraciət edilir və ya 01.7-ci bəndin tələblərinə əsasən sahənin keçirilməsindən imtina edilməsi haqda Komissiya qərar qəbul edir.

**01.9. Müraciətlərə baxılmasının nəticəsinə dair məlumatlandırma** - sahənin keçirilməsi ilə əlaqədar müraciətlərə baxılmasının nəticəsi barədə müvafiq qərar qəbul edildiyi gündən sonra 3 gün ərzində Komissiya maraqlı tərəfə yazılı məlumat verir.

**01.10. Keçirilmiş sahəyə dair razılaşma** - ARDNŞ üzrə mənzil növbəsi uçotunda dayanan şəxslərlə onların keçirilmiş sahə ilə təmin olunması barədə razılaşma imzalanır. Həmin razılaşmada keçirilmiş sahədə təmir işlərinin maraqlı tərəfin hesabına aparılması və ARDNŞ üzrə mənzil növbəsindən çıxması barədə iradə ifadə olunur.

**01.11. Sahənin keçirilməsi ilə əlaqədar işlərin başa çatdırılması** - sahənin keçirilməsi ilə əlaqədar yenidənqurma, yenidən planlaşdırma və/və ya digər zəruri işlərin başa çatdırılması ARDNŞ-nin müvafiq Komissiyasının aktı ilə təsdiq olunur və aidiyyəti icra hakimiyyəti orqanında sahənin yaşayış sahəsi kimi qeydiyyata alınması təmin olunur.